"PAŞA Sığorta" ASC

| **«Razılaşdırılıb»:** | **«Təsdiq edirəm»:** |
|---|---|
| Azərbaycan Respublikasının<br>Mərkəzi Bankının Baş Direktoru | "PAŞA Sığorta"<br>ASC-nin İdarə Heyətinin sədri |
| ____________________Z.Z.Əliyev | _________________Ü.K.Cabbarova |
| **«06» may 2024-cü il** | **«06» may 2024-cü il** |

# FƏRDİ QƏZA SIĞORTASI QAYDALARI

**Bakı -2024**

MÜNDƏRİCAT

Ümumi anlayışlar ………………………………………………………………… 2
1. Sığorta sinifi …………………………………………………………….……… 4
2. Sığorta predmeti ……………………………………………………………….. 4
3. Sığorta obyekti ………………………………………………………….……. 4
4. Sığorta məbləği ……………………………………………………..……….. 4
5. Sığorta riskləri və sığorta təminatı ………………………………………………….. 4
6. Sığorta risklərindən istisnalar …………………………………..……….……. 5
7. Sığorta müqaviləsi ……………………………………………………………… 6
8. Sığorta haqqı ...........………………………………………………………… 7
9. Sığorta təminatının ərazisi ………………………………………………......... 7
10. Gözləmə müddəti ………………………………………………..……… 7
11. Riskin dərəcəsinin dəyişməsi ..........………………………………………….. 7
12. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi ……………………………. 7
13. Sığorta müqaviləsinə xitam verilməsi ……………………………………………… 8
14. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri …………………. 8
15. Tərəflərin hüquq və öhdəlikləri …………………………………………………. 8
16. Sığorta hadisəsi baş verdikdə Sığortalının öhdəlikləri ………………….……..... 9
17. Zərərin müəyyən edilməsi və sığorta ödənişinin verilməsi .................................... 10
18. Sığorta ödənişindən sığorta haqqının tutulması ...................................................... 14
19. Sığorta ödənişi ........................................................................................................ 14
20. Ödənişdən imtinanın əsasları .................................................................................. 15
21. Tərəflərin məsuliyyəti ............................................................................................ 15
22. İş sirlərinin gizli saxlanılması ................................................................................ 16
23. Xüsusi şərtlər .......................................................................................................... 16
24. Mübahisələrin həlli qaydası .................................................................................... 16
TARİF DƏRƏCƏLƏRİNİN ƏSASLANDIRILMASI ................................................ 17

**<u>Ümumi anlayışlar</u>**

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığorta olunan** - sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs (fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, eləcə də fəaliyyət qabiliyyəti olmayan şəxslərdən başqa);

**Sığortaçı** - sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Faydalanan şəxs(lər)** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır;

**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

**Sığorta hadisəsi** - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən gözlənilməz hadisə və ya yaranan hal;

**Sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

**Sığorta tələbi** - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

**Sığorta predmeti** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs;

**Sığorta marağı** - sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta riski və ya risk** - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

**Sığorta təminatının müddəti** – sığorta risklərinin təminatda hesab olunduğu müddət;

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən zərər məbləğindən, qismən sığorta halında isə sığortaçının zərər məbləğindəki payından çıxılır.

- Şərtli azadolma - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq edilmir.
- Şərtsiz azadolma - məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

Sığorta müqaviləsində müxtəlif hallar üçün müxtəlif azadolma məbləğləri müəyyən oluna bilər.

**Gözləmə müddəti** - gözləmə müddəti, sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir.

**Əhəmiyyətli hallar** – Sığortaçının müqavilədən imtina etmək və ya onun şərtlərinin müəyyənləşdirilməsi qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır;

**Sığorta təminatının ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

**<u>Xüsusi anlayışlar:</u>**

**Əmək qabiliyyətinin müvəqqəti itirilməsi** - vaxt keçdikcə tam bərpa oluna bilən, ümumi əmək qabiliyyətinin müvəqqəti olaraq itirilməsi.

**Əmək qabiliyyətinin daimi itirilməsi** (əlillik) - vaxt keçdikcə tam bərpa oluna bilməyən, ümumi əmək qabiliyyətinin tam və ya qismən itirilməsi.

## 1. Sığorta sinifi

Sığorta obyektinə görə şəxsi sığortaya aid olan aşağıdakı sinif:

Sığorta olunan bədbəxt hadisə nəticəsində öldükdə, əmək qabiliyyətini tam və ya qismən itirdikdə müqavilədə müəyyən edilən məbləğdə, həmçinin sığorta olunanın əlavə xərclərinin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan fərdi qəza sığortası

## 2. Sığorta predmeti

Bu qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs sığortanın predmeti hesab olunur.

## 3. Sığorta obyekti

Bu qaydalara əsasən sığorta obyekti, sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyətinə dəyən zərərlə bağlı əmlak mənafeləridir.

## 4. Sığorta məbləği

4.1. Sığorta məbləği sığortaçı ilə sığortalı arazisində razılaşdırılaraq müəyyənləşdirilir və sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

4.2. Sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığorta məbləğinin azaldılması sığorta hadisəsi baş verdiyi tarixdən tətbiq olunur. Sığortalı sığortaçı ilə razılaşdırmaqla əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğini bərpa edə bilər.

## 5. Sığorta riskləri və sığorta təminatı

**Bölmə A: Fərdi qəza**

5.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı Sığortalıya/Sığorta olunana, bu Qaydaların istisnalar bəndində nəzərdə tutulmuş hallardan başqa aşağıdakılar nəticəsində baş vermiş sığorta hadisələrinə sığorta təminatı verir (sığorta şəhadətnaməsində göstərilməklə):

5.1.1. Bədbəxt hadisə nəticəsində ölüm;

5.1.2. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi olaraq tam və ya qismi itirilməsi;

5.1.3. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilməsi.

5.2. Bu sığorta növündə bədbəxt hadisə dedikdə, sığortalının iradəsindən asılı olmayan, onun həyatına və sağlamlığına zərər vuran qəfil, öncədən görünməyən və təsadüfi hadisə başa düşülür.

5.2.1. Aşağıdakı hallar da həmçinin bədbəxt hadisə hesab edilir:

5.2.2. Avtonəqliyyat vasitəsinin qəza törətməsi nəticəsində sığortalanmış şəxsə xəsarət yetirən xarici fiziki təsirlə bağlı olan gözlənilməyən, qəfil və təsadüfi hadisə;

5.2.3. Qəflətən və gözlənilmədən otağa dolan qazın tənəffüsündən baş verən ölüm hadisəsi;

5.2.4. Yanıqlardan, kənar hər hansı predmetin təsirindən və ani bir hərəkət nəticəsində əzələ və sinir sisteminin zədələnməsi, burxulması və qopması;

5.2.5. Yanma və donma;

5.2.6. İlan və ya həşəratların çalması nəticəsində zəhərlənmələr;

5.2.7. Zəhərli bitkilər, kimyəvi maddələr, keyfiyyətsiz ərzaq məhsullarının, dərmanların təsirindən təsadüfi ciddi zəhərlənmə nəticəsində ölüm;

5.2.8. Quduzlaşmış heyvanın sığortalını/sığorta olunanı dişləməsi nəticəsində quduzlaşmaya görə baş verən ölüm və ya bədən xəsarəti.

5.3. **Təminatın genişləndirilməsi**

Sığorta şəhadətnaməsində qeyd olunması şərtilə aşağıdakı hallar nəticəsində dəyən zərər sığorta təminatına daxil edilə bilər (Əks halda aşağıda sadalanan hallar nəticəsində baş verən zərərlər üzrə sığorta təminatı verilmir):

5.3.1. Motosiklet və motorlu velosiped sürmək və onlara minmək;

5.3.2. Açıq dənizdə balıqçılıq, balıq ovu, qaban və digər vəhşi heyvanların ovlanması və dağ yüksəkliklərində ovçuluq;

5.3.3. ov, alpinizm, planerizm, speleologiya (mağaraları öyrənməklə əlaqədar elm), paraşütlə tullanma, sualtı idman növləri, qış idman növləri, reqbi, polo, döyüş sənətləri, motosiklet və at yarışları, su xizək yarışları; hər hansı idman yarışlarında və ya belə yarışlara məşqlər, həmçinin həyat və sağlamlıq üçün yüksək təhlükə yaradan hər hansı digər fəaliyyətlərdə iştirak;

5.3.4. Bütün növ idman müsabiqələri, sürət yarışları;

5.3.5. Sərnişin kimi uçmaq halı istisna olmaqla, havada bütün növ uçuşlar və həmçinin təlim uçuşları;

5.3.6. Azərbaycan Respublikası sərhədlərindən kənarda baş verən bədbəxt hadisələr.

**Bölmə B: Tibbi xərclər**

5.4. Bu bölmə əsasında bağlanan Sığorta müqaviləsinə (şəhadətnaməsinə) görə Sığortaçı həmin şəhadətnamə ilə müəyyən edilmiş sığorta haqqı müqabilində Sığortalı ilə razılaşır ki, əgər sığorta müddətində Sığortalı sığorta hadisənin bilavasitə nəticəsi olaraq çəkilmiş zəruri tibbi xərclərin əvəzini bu qaydalara uyğun olaraq ona ödəyəcəkdir.

**6. Sığorta risklərindən istisnalar:**

Sığorta təminatı aşağıdakıların nəticəsində baş verən bədbəxt hadisələri əhatə etmir:

6.1. Nüvə partlayışının təsiri, radiasiya və radioaktiv şüalanma;

6.2. Sığorta olunanın xidməti vəzifəsinin icrası ilə bağlı olmayan hərbi əməliyyatlar, manevrlər və ya diğər hərbi tədbirlər;

6.3. Vətəndaş müharibəsi, hər cür xalq iğtişaşları və ya tətillər;

6.4. Sığortalanmış şəxsin alkoqollu, narkotik və ya toksik sərxoşluğu, o cümlədən belə sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etməsi və həmçinin nəqliyyat vasitəsini belə sərxoş vəziyyətdə olan şəxsə və ya uyğun kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə idarə etmək üçün verməsi;

6.5. İdarə edilməsi üçün xüsusi icazə tələb olunan nəqliyyat vasitəsinin belə icazə olmadan sığorta olunan tərəfindən idarə edilməsi;

6.6. Sığorta olunanın cinayət törətməsi və ya buna təşəbbüs zamanı ölməsi və ya bədən xəsarəti alması;

6.7. Sığorta olunanın intihar etməsi və ya buna cəhd göstərməsi;

6.8. Psixi və ya ağır əsəb pozuntuları;

6.9. Sui-qəsd və ya sui-qəsdə cəhd;

6.10. İnsan həyatını xilas etmək məqsədi ilə edildiyi hallar istisna olmaqla, bilərəkdən özünü xüsusi təhlükə altına atma;

6.11. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, zəlzələ, sel, vulkan püskürməsi və torpaq sürüşməsi;

6.12. Bütün növ xəstəliklər və onların nəticələri;

6.13. Sığorta təminatına daxil olan qəzanın tələb etmədiyi təqdirdə, aparılan cərrahiyyə əməliyyatları və müxtəlif növ şüaların qəbulu.

**7. Sığorta müqaviləsi**

**7.1. Sığorta müqaviləsinin bağlanması qaydası**

7.1.1. Sığorta müqaviləsi Sığortalının müraciəti əsasında və tərəflərin qarşılıqlı razılığına əsasən bağlanır.

7.1.2. Sığorta müqaviləsi bağlanarkən Sığortalı riskin dərəcəsinin müəyyən edilməsi üçün əhəmiyyətli və ona məlum olan bütün hallar haqqında Sığortaçıya məlumat verməlidir. Sığortalının ərizə formasında qeyd etdiyi hallar həmçinin əhəmiyyətli hallar hesab edilir.

Sığorta müqaviləsi bağlandıqdan sonra Sığortalının Sığortaçıya bilərəkdən yalan məlumatlar verməsi müəyyən edilərsə, Sığortaçı müqavilənin etibarsız hesab edilməsini tələb edə bilər.

7.1.3. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, Sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.

**7.2. Sığorta müqaviləsinin tərəfləri**

7.2.1. **Sığortaçı** - Bu Qaydalara əsasən Sığortaçı “PAŞA Sığorta” ASC-dir.

7.2.2. **Sığortalı -** Bu Qaydalara əsasən Sığortalı hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur. Bu Qaydalar daxilində Sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən Sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

**7.3. Sığorta olunan** - sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan fiziki şəxs (fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, eləcə də fəaliyyət qabiliyyəti olmayan şəxslərdən başqa).

**7.4. Faydalanan şəxs:**

7.4.1. Sığortalı sığorta müqaviləsində istənilən şəxsi faydalanan şəxs qismində təyin edə bilər.

7.4.2. Faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir. Əks halda faydalanan şəxs Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq təyin ediləcəkdir.

7.4.3. Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir.

7.4.4. Bu Qaydalar və sığorta müqaviləsi ilə Sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan Faydalanan şəxsə də eyni həcmdə aid edilir.

7.4.5. Sığorta hadisəsi nəticəsində sağlamlığına zərər dəymiş şəxs, onun öldüyü halda isə vərəsəsi zərərçəkən sayılır.

**7.5. Sığorta müddəti**

Sığorta müddəti, sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsinin bağlandığı gün saat 24:00-da başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat 24:00-da başa çatır.

**8. Sığorta haqqı**

8.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.

8.2. Sığorta haqqı bir dəfəyə ödənilir və ya tərəflərin razılğına əsasən hissə-hissə ödənilə bilər.

8.3. Sığorta haqqının ödənildiyi gün, pul vəsaitinin Sığortaçının bank hesabına daxil olduğu gün hesab olunur.

8.4. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:

8.4.1. Bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 8.4.2.-cı maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək əlavə müddət müəyyən edə bilər.

8.4.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

8.5. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, Sığortaçı sığorta müqaviləsinə xitam verə bilər və ya birtərəfli qaydada müqavilənin icrasından imtina edə bilər.

**9. Sığorta təminatının ərazisi**

Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa Azərbaycan Respublikasının ərazi hüdudlarında baş verən sığorta hadisələri təminatda hesab olunur.

**10. Gözləmə müddəti**

10.1. Sığorta müqaviləsi ilə gözləmə müddəti müəyyən oluna bilər.

10.2. Sığorta müqaviləsində gözləmə müddəti nəzərdə tutulduqda, sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin əvəzinin ödənilməsi sığortalının üzərində qalır.

10.3. Şərtli gözləmə müddəti müəyyən edildikdə, sığorta hadisəsinin nəticələrinin həmin müddətə bərabər və ya ondan artıq müddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir.

10.4. Sığorta müqaviləsində şərtsiz gözləmə müddəti müəyyən edildikdə, sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir.

**11. Riskin dərəcəsinin dəyişməsi**

11.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, Sığortalı, sığorta müqaviləsi bağlanan zaman Sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə Sığortaçıya dərhal məlumat verməlidir.

11.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

11.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək;

11.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya

11.2.3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsinə xitam vermək.

**12. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi**

Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı, faydalanan şəxsin (əgər varsa) yazılı razılığı ilə müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

**13. Sığorta müqaviləsinə xitam verilməsi**

13.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

13.1.1. Müqavilənin müddəti bitdikdə;

13.1.2. Sığortaçı müqavilə üzrə Sığortalı qarşısında öhdəliklərini tam həcmdə icra etdikdə;

13.1.3. Sığortalı sığorta haqqlarını müqavilə ilə müəyyən olunmuş müddətdə ödəmədikdə;

13.1.4. Sığortaçı, Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında ləğv edildikdə;

13.1.5. Sığorta müqaviləsinin etibarsız hesab olunması haqqında məhkəmə tərəfindən qərar qəbul edildikdə;

13.1.6. Sığorta marağı artıq mövcud olmadıqda;

13.1.7. Sığorta predmeti artıq mövcud olmadıqda.

13.1.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

13.2. Sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər.

13.3. Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 (otuz) gün əvvəl yazılı surətdə xəbərdar etməlidirlər.

**14. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

14.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.

14.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

14.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

14.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu bəndin 14.1-ci və 14.2-ci yarımbəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

14.5. Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu bəndin 14.3-cü və 14.4-cü yarımbəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

**15. Tərəflərin hüquq və öhdəlikləri**

15.1. **Sığortalının aşağıdakı hüquqları var:**

15.1.1. sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq;

15.1.2. sığorta müqaviləsini hər hansı başqa şəxsin (hüquqi və ya fiziki) – faydalanan şəxsin xeyrinə bağlamaq;

15.1.3. sığorta müqaviləsinə xitam vermək;

15.1.4. itirilmiş şəhadətnamənin yerinə dublikatını almaq;
15.1.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar.

15.2. **Sığortalının aşağıdakı vəzifələri var:**

15.2.1. sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 16.1-ci maddəsində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etməli;
15.2.2. ziyanın qarşısının alınması və azaldılması üçün bütün zəruri tədbirlər görməli, sığorta haqqını vaxtında ödəməli;
15.2.3. riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər (ixtisas və iş yerinin dəyişməsi, korluq və karlıq halları, epilepsiya, tam və ya qismən iflic olma, vərəm, ruhi və sinir xəstəlikləri və s.) barədə bildiyi və ya bilməli olduğu məlumatları sığortaçıya bildirir;
15.2.4. sığortalanmış obyektə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;
15.2.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

15.3. **Sığortaçının aşağıdakı hüquqları var:**

15.3.1. sığortalının bildirdiyi məlumatların düzgünlüyünü yoxlamaq;
15.3.2. Sığortalanmış riskin dərəcəsi artdıqda, Sığortalıya sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən, sığorta riskinin artması nisbətində əlavə sığorta haqqının ödənilməsini təklif etmək və ya Sığortalını xəbərdar etdikdən sonra sığorta müqaviləsinə xitam vermək;
15.3.3. sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan tələb etmək;
15.3.4. sığortalı sığorta müqaviləsi üzrə öz öhdəliklərini icra etmədikdə, saxta sənədlər təqdim etdikdə və ya zərərin artırılması və ya sığorta ödənişinin əsassız şəkildə artırılması məqsədilə qəsdən hərəkətlər etdikdə, sığorta ödənişinin verilməsindən tam və ya qismən imtina etmək;
15.3.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar.

15.4. **Sığortaçının aşağıdakı vəzifələri var:**

15.4.1. sığortalını sığorta qaydaları ilə tanış etməli;
15.4.2. sığorta hadisəsi baş verdikdə bütün zəruri sənədləri aldıqdan sonra sığorta ödənişini bu Qaydaların 19.3-cü maddəsində müəyyən edilmiş müddətdə verməli;
15.4.3. qanunvericliklə nəzərdə tutulmuş hallardan başqa, Sığortalı şəxsin əmlak vəziyyəti, o cümlədən kommersiya və sığorta sirri olan məlumatları yaymamaq;
15.4.4. sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;
15.4.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

## 16. Sığorta hadisəsi baş verdikdə Sığortalının öhdəlikləri:

16.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs (onun ölməsi halında isə varisləri) hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

16.2. Sığortaçı, istədiyi vaxt xəsarət alanın (sığortalının və ya sığorta olunanın) müayinə və tibbi vəziyyətinə nəzarət etmək hüququ vardır. Sığortaçının bu müayinə və nəzarəti həyata keçirməsinə mütləq şərait yaradılmalıdır.
16.3. Sığortalı xəsarət alanın müalicəsi və vəziyyətinin yaxşılaşdırılması üçün sığortaçının tövsiyə etdiyi həkimin xəsarətin aradan qadırılması ilə bağlı verdiyi məsləhət və təkliflərinə əməl etməyə sığorta olunan borcludur.
16.4. Sığortalı (sığorta olunan) tərəfindən 16.3-cü bənddə göstərilən vəzifələr qəsdən yerinə yetirilməzsə, sığortaçı sığorta hadisəsi nəticəsində ortaya çıxan nəticələrə və ya xəsarətin daha da ağırlaşmasına görə məsuliyyətdən azad edilir.
16.5. Sığortalı (sığorta olunan) onun ölməsi halında isə varisləri, hadisənin nəticələrinin və sığorta ödənişinin müəyyən edilməsi üçün sığortaçının tələb etdiyi bütün lazımi və əldə edilməsi mümkün olan sənədləri sığortaçıya təqdim etməyə borcludurlar.
16.6. Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs bu qaydaların 16.1-ci bəndi ilə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.
16.7. Sığortalı baş verən hadisə barəsində səlahiyyətli dövlət orqanlarına məlumat verməyə və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirməyə borcludur.
16.8. Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir.
16.9. Belə tədbirlər həyata keçirilərkən sığortalı sığortaçıdan aldığı təlimatları yerinə yetirməlidir.
16.10. Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının sığorta hadisəsinə aid bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.
16.11. Sığortalı və ya sığorta olunan (onun ölməsi halında isə varisləri) zərərin aradan qaldırılması ilə bağlı müraciət ediləcək tibb müəssisəsini sığortaçı ilə razılaşdırılmalıdır.
16.12. Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək, həmçinin hadisənin digər iştirakçılarının və sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.
16.13. Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

**17. Zərərin müəyyən edilməsi və sığorta ödənişinin verilməsi:**

Sığorta ödənişinin həcmi qəza nəticəsində alınan zədələrin ağırlığından asılı olaraq sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa sığorta məbləğinin aşağıdakı faizlərini təşkil edir:

**Bölmə A: Fərdi Qəza**

**17.1. Ölüm halında** – 100 %;

Sığortalı, sığorta hadisəsinin baş verməsi nəticəsində dərhal və ya hadisə baş verən tarixindən etibarən bir il ərzində həmin hadisədən aldığı zədədən vəfat edərsə, sığorta məbləği sığorta şəhadətnaməsində göstərilən faydalanan şəxsə, faydalanan şəxs yoxdursa, sığortalının qanuni varislərinə ödənilir.

Sığortalı faydalanan şəxsi yazılı ərizəsi ilə təyin edir və ya bu şəxs sığorta şəhadətnaməsində göstərilir. Əks halda faydalanan şəxs Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən müəyyən olunur.

**17.2. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi itirilməsi**

Əmək qabiliyyətinin daimi itirilməsi dedikdə, Sığorta olunan şəxsin hər hansı peşəkar və ya işgüzar fəaliyyətlə məşğul olmasına tam mane olan və 12 ay davam edən və bu müddətin bitməsindən sonra bərpa olunması mümkün olmayan əmək qabiliyyətinin itirilməsi başa düşülür.

Sığortalı, sığorta şəhadətnaməsi ilə təminat verilən hadisənin baş verdiyi anda və ya hadisənin baş vermə tarixindən etibarən bir il ərzində həmin hadisədən aldığı zədədən ömürlük əlil olarsa, ömürlük əlil olmaya görə verilən sığorta məbləği tibbi müalicənin başa çatmasından və ömürlük əlil olmanın qəti olaraq təsdiq edilməsindən sonra ödəniş cədvəlində göstərilən nisbətlərə uyğun olaraq sığortalıya ödənilir.

Ödəniş cədvəlində göstərilməyən xəsarətlər, yüngül xəsarət olsa belə, əhəmiyyət dərəcələrinə görə cədvəldə göstərilən nisbətlərə uyğun olaraq müəyyən edilir.

Ömürlük əlil olmanın nisbətləri müəyyən edilərkən sığortalının ixtisas və sənəti (peşəsi) nəzərə alınmır.

Bədənin bir üzvünün və ya üzvün bir hissəsinin itirilməsi dedikdə, həmin üzvün və ya üzvün bir hissəsinin heç bir iş görə bilməməsi və tamamilə istifadəsiz hala düşməsi başa düşülür.

Hadisə baş verməmişdən əvvəl də heç bir iş görə bilməyən və istifadəsiz halda olan bədən üzvünün və ya üzvün bir hissəsinin itirilməsinə görə sığorta ödənişi verilmir.

Hadisə baş verməmişdən əvvəl qismən əlil olmuş bədən üzvünün və ya üzvün bir hissəsinin əlillik nisbəti hadisə nəticəsində artarsa, sığorta ödənişi hadisədən əvvəlki nisbət ilə hadisədən sonrakı nisbət arasındakı fərqə əsasən hesablanır.

Eyni bir hadisə nəticəsində bədənin müxtəlif üzvlərində və ya müxtəlif üzvlərin hissələrində əmələ gələn əlilliyə görə ayrı-ayrılıqda hesablanan ödənişlərin ümumi məbləği sığorta şəhadətnaməsində göstərilən sığorta məbləğindən çox ola bilməz.

Əgər bədbəxt hadisənin nəticələri sığorta olunmuş şəxsin həmin hadisənin baş verməsindən əvvəl mövcud olmuş hər hansı vəziyyəti və ya fiziki çatışmazlıqları səbəbindən ağırlaşarsa, həmin nəticələrə münasibətdə bu sığorta ilə həyata keçiriləcək ödəniş məbləği, belə ağırlaşmanın olmadığı hal üçün ödənilməli olan ağlabatan məbləğə bərabər olur. Bu sığortanın əhatə etdiyi bir və ya bir neçə sığorta hadisəsinə (fərdi qəzaya) münasibətdə şəhadətnamə üzrə bir Sığortalanmış şəxs üçün ödənilən məbləğ bir şəxs üçün müəyyən edilmiş ümumi sığorta məbləğini aşmır.

17.2.1. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi olaraq tam itirilməsi halında – 100%

17.2.2. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi olaraq qismi itirilməsi halında aşağıda qeyd olunmuş ödəniş cədvəlinə əsasən:

| Bədən xəsarətləri | Sığorta məbləğindən %-lə ödəniş |
|---|---|
| Hər iki gözdə görmə qabiliyyətinin itirilməsi | 100 |
| Tam ruhi pozğunluq | 100 |
| Hər iki biləyin vəya əlin itirilməsi | 100 |
| Travma nəticəsində hər iki qulağin tam karlığı | 100 |
| Aşağı çənənin tam çıxarılması | 100 |
| Nitqin tam itirilməsi | 100 |
| Bir əlin (dirsəkdən biləyə qədər) və bir ayağın tam itirilməsi | 100 |
| Bir əlin (dirsəkdən biləyə qədər) və bir pəncənin tam itirilməsi | 100 |
| Bir biləyin və bir pəncənin tam itirilməsi | 100 |
| Bir biləyin və bir ayağın tam itirilməsi | 100 |
| Hər iki ayağın tam itirilməsi | 100 |
| Hər iki pəncənin tam itirilməsi | 100 |
| Sümüyün bütün qalınlığı üzrə kəllə sümüyünün zədəsi | |
| - səthi 6 $sm^2$ dən çox | 40 |
| - səthi 3-dən 6 $sm^2$ -dək | 20 |
| - səthi 3-$sm^2$ -dən az | 10 |

| | | |
|---|---|---|
| Aşağı cənənin və ya yuxarı çənə sümüyünün yarısının çıxarılması | 40 | |
| Bir gözün tam itirilməsi | 40 | |
| Bir qulağın tam karlığı | 30 | |
| | ***SAĞ** | ***SOL** |
| Bir əlin vəya bir biləyin itirilməsi | 60 | 50 |
| Əl sümüyünün əhəmiyyətli dərəcədə zədəsi (dirsəkdən biləyə qədər) (aşkar vəya sağalmaz zədə) | 50 | 40 |
| Yuxarı ətrafın tam iflici (sinirlərin sağalmaz zədəsi) | 65 | 55 |
| Qurşaq sinirinin tam zədəsi | 20 | 15 |
| Çiyinin ankilozu | 40 | 30 |
| Əlverişli mövqedə dirsəyin ankilozu (düz bucaq altinda 15 dərəcə) | 25 | 20 |
| Əlverişsiz mövqedə dirsəyin ankilozu | 40 | 35 |
| Bazu önün iki sümüyünün sümük maddəsinin əhəmiyyətli dərəcədə itirilməsi (aşkar və sağalmaz xəsarət) | 40 | 30 |
| Məkrəzi sinirin tam iflici | 45 | 35 |
| Mil sinirinin tam iflici | 40 | 35 |
| Bazu önünün mil sinirinin tam iflici | 30 | 25 |
| Əlin mil sinirinin tam iflici | 20 | 15 |
| Dirsək sinirinin tam iflici | 20 | 15 |
| Əlverişli mövqedə biləyin ankilozu (düz və ovuc aşağı) | 20 | 15 |
| Əlverişsiz mövqedə əlin ankilozu (bükülmə və ya dartılma və ya ovuc yuxarı) | 30 | 25 |
| Baş barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmağın qismən itirilməsi (dırnaq sümüyünün) | 10 | 5 |
| Baş barmağın tam ankilozu | 20 | 15 |
| Şəhadət barmağının tam amputasiyası | 15 | 10 |
| Şəhadət barmağının iki falanqasının tam itirilməsi | 10 | 8 |
| Şəhadət barmağının dırnaq falanqasının tam itirilməsi | 5 | 3 |
| Baş və şəhadət barmaqlarının eyni zamanda amputasiyası | 35 | 25 |
| Baş və şəhadət barmağından başqa digər bir barmağın itirilməsi | 25 | 20 |
| Baş və şəhadət barmağından başqa digər iki barmağın itirilməsi | 12 | 8 |
| Baş və şəhadət barmaqlarından başqa digər üç barmağın itirilməsi | 20 | 15 |
| Baş barmaq da daxil olmaqla dörd barmağın itirilməsi | 45 | 40 |
| Baş barmaq isitisna olmaqla dörd barmağın itirilməsi | 40 | 35 |
| Orta barmağın itirilməsi | 10 | 8 |
| Baş, şəhadət və orta barmaqlar istisna olmaqla bir barmağın tam itirilməsi | 7 | 3 |
| Budun tam itirilməsi (yuxarı hissəsinin) | 60 | |
| Budun (aşağı hissəsinin) və ayağın tam itirilməsi | 50 | |
| Pəncənin tam itirilməsi (tibial-ayaq dirnağının ekzartikulyasiyası) | 45 | |
| Pəncənin qismən itirilməsi (topuqaltı-sümük ekzartikulyasiyası) | 40 | |
| Pəncənin qismən itirilməsi (orta ayaq dırnağının ekzartikulyasiyası) | 35 | |

| | |
|---|---|
| Pəncənin qismən itirlməsi (ayaq dırnağının arxası-ayaq dırnağının ekzartikulyasiyası) | 30 |
| Aşağı ətrafların tam iflici (sağalmaz sinir zədəsi) | 60 |
| Xarici dizaltı oturaq sinirinin tam iflici | 30 |
| Daxili dizaltı oturaq sinirinin tam iflici | 20 |
| İki sinirin tam iflici (xarici və daxili dizaltı oturaq sinirləri) | 40 |
| Budun yan hissəsinin ankilozu | 40 |
| Dizin ankilozu | 20 |
| Budun yan hissəsindən və ya hər iki ayağın sümüklərinin sümük maddələrinin itirilməsi (sağalmaz vəziyyəti) | 60 |
| Fraqmentlərin əhəmiyyətli dərəcədə ayrılması və ayağın dartılması zamanı hərəkətin əhəmiyyətli dərəcədə çətinləşməsi ilə dizüstü kasalığın sümük maddəsinin itirilməsi | 40 |
| Hərəkəti saxlamaqla dizüstü kasalığın sümük maddəsinin itirilməsi | 20 |
| Aşağı ətrafın ən azı 5 sm qısaldılması | 30 |
| Aşağı ətrafın 3 sm-dən 5 sm-dək qısaldılması | 20 |
| Aşağı ətrafın 1 sm-dən 3 sm-dək qısaldılması | 10 |
| Ayağın bütün barmaqlarının amputasiyası | 25 |
| Baş barmaq da daxil olmaqla ayağın dörd barmağının amputasiyası | 20 |
| Ayağın dörd barmağının tam itirilməsi | 10 |
| Ayağın baş barmağının tam itirilməsi | 10 |
| Pəncənin iki barmağının tam itirilməsi | 5 |
| Baş barmaqdan başqa ayağın bir barmağının amputasiyası | 3 |

*Sığortalı solaxay olarsa, yuxarıdakı cədvəldə sağ və sol əl üçün müəyyən edilən nisbətlər əksinə tətbiq edilir.

**17.3. Əmək qabiliyyətinin müvəqqəti itirilməsi:**

Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, əmək qabiliyyətinin müvəqqəti tam itirilməsi zamanı sığorta olunmuş şəxsə 12-ci gündən (11 günün bitməsindən sonra) başlayaraq, ümumi sığorta məbləğinin 0,27%-i həcmində gündəlik kompensasiya ödəniləcəkdir. Ümumi əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı verilən sığorta ödənişinin ümumi həcmi müvafiq sığorta məbləğinin 35%-dən artıq ola bilməz. Sığortalının iş qabiliyyətinə qismən malik olduğu və ya iş qabiliyyətinin qismən bərpa edildiyi hallarda, həmin tarixdən etibarən gündəlik ödəniş məbləği 50% azaldılır.

**17.4. Bir neçə xəsarət üzrə ödəniş**

17.4.1. Bir bədbəxt hadisə nəticəsində eyni vaxtda bir neçə bədən xəsarəti alınarsa, sığorta ödənişinin həcmi hər xəsarət üçün nəzərdə tutulmuş sığorta ödənişi hissələrinin cəmləşdirilməsi yolu ilə müəyyən olunur.

17.4.2. Bir və ya bir neçə bədbəxt hadisə nəticəsində bədənin bir neçə ayrı hissəsinin (bilək, əl, pəncə, ayaq) aldığı xəsarətə münasibətdə ödənişin ümumi məbləği bədənin bütün hissələrindən istifadə imkanlarının itirilməsi və ya fiziki olaraq itirilməsi zamanı verilən sığorta ödənişi məbləğini aşa bilməz.

Sığorta hadisəsi nəticəsində eyni zamanda həm ölüm, həm də ömürlük əlil olmağa görə ödəniş verilmir. Ancaq ömürlük əlillik təminatı almış sığortalı, hadisənin baş verdiyi tarixdən etibarən bir il

ərzində həmin hadisə nəticəsində vəfat edərsə, sığortalıya ömürlük əlil olmağa görə verilmiş ödəniş ilə ölüm təminatı ödənişi arasındakı fərq onun hüquqi varislərinə ödənilir.

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə verilən ödəniş və müalicə xərcləri ölüm və ya ömürlük əlilliyə görə verilən ödənişdən çıxılmır.

**Bölmə B. Tibbi xərclər**

Bu tibbi xərclər üçün Sığortalı başqa sığorta üzrə ödəniş almaq hüququna malikdirsə, Sığortaçı burada göstərilən hədlərə müvafiq olaraq yalnız belə ödəniş məbləğilə ümumi tibbi xərclər arasındakı fərqə görə məsuliyyət daşıyır. Əgər tibbi xərclər sığorta təminatına daxil edilmişdirsə, şəhadətnamədə ayrıca göstərilməklə, sığortaçı hadisənin baş verdiyi tarixdən etibarən bir il ərzində müəyyən edilmiş həkim haqqı ilə dərman, radioqrafiya, vanna, massaj, xəstəxana və digər müalicə xərclərini (nəqliyyat xərcləri istisna olmaqla) sığorta şəhadətnaməsində bu təminat üçün başqa məbləğ göstərilməyibsə, sığorta məbləğinin 10%-i həddində ödəyir.

Qəza nəticəsində təbii və ya süni dişlərə dəyən xəsarətin aradan qaldırılması üçün çəkilən protez xərclərinə görə verilən sığorta ödənişi tibbi xərclər məbləğinin 10%-dən çox ola bilməz.

Tibbi xərclər üçün sığortalının işlədiyi müəssisə və ya qanunvericiliyə əsasən müəyyən edilmiş icbari sığortaya əsasən verilən bütün ödənişlər sığortaçının ödəyəcəyi ödənişdən çıxılır.

Tibbi xərclərin müxtəlif sığortaçılar tərəfindən ödənilməsi hallarında bu xərclər həmin sığortaçılar arasında onların təminat nisbətinə uyğun olaraq bölüşdürülür.

**18. Sığorta ödənişindən sığorta haqqının tutulması**

Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**19. Sığorta ödənişi**

19.1. Sığortaçı sığorta müqaviləsi ilə təminat verilmiş hadisələr baş verdikdə, sığorta ödənişini sığortalının ərizəsinə (sığorta tələbinə), hadisə ilə əlaqədar və bu müqavilənin 19.2-ci maddəsinə əsasən sığortaçının tələb etdiyi sənədlərə və sığortaçının nümayəndəsinin tərtib etdiyi sığorta aktına əsasən ödəyir.

19.2. Sığorta ödənişinin verilməsi üçün sığortaçı tərəfindən tələb olunan sənədlər aşağıdakılardır:

19.2.1. sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya ünvanladığı yazılı sığorta tələbi;

19.2.2. sığorta hadisəsi ilə əlaqədar müvafiq səlahiyyətli orqanlardan sığortaçının sorğusu əsasında alınan sənədlər;

19.2.3. sığorta olunan şəxs vəfat etdikdə ölüm haqqında şəhadətnamənin surəti, tibbi ekspertizanın rəyinin surəti (mövcud olduğu halda);

19.2.4. sığorta olunan şəxs ümumi əmək qabiliyyətini itirdikdə əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar tibbi-sosial ekspert komissiyasının rəyi (arayışı) və ya əmək qabiliyyətinin itirilməsi vərəqəsi;

19.2.5. fərdi qəza nəticəsində tibb müəssisələrinin göstərdiyi təcili tibbi xidmətlərlə əlaqədar yaranan xərclərin miqdarını təsdiqləyən sənədlər;

19.2.6. faydalanan şəxsin bank rekvizitləri.

19.3. Sığorta hadisəsi faktının və şəraitinin sübut edilməsi üçün Sığortalı fərdi qəzanın baş verməsi faktını, həmçinin ölüm və ya səhhətə dəyən ziyan ilə bağlı bütün sənədləri Sığortaçıya təqdim etməyə borcludur.

19.4. Sığorta ödənişi tələb olunan sənədlərin sonuncusunu aldıqdan sonra (sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa) 7 iş günü müddətində sığorta ödənişini həyata keçirir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina edir.

**20. Ödənişdən imtinanın əsasları**

20.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

20.1.1. sığorta hadisəsi barəsində məlumatın sığortaçıya vaxtında verilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

20.1.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

20.1.3. müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

20.1.4. sığortalının zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

20.1.5. zərər dəymiş sığorta predmetinin sığortaçıya təqdim edilməsi ilə bağlı müddəalara riayət edilməməsinin sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

20.1.6. sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

20.1.7. sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

20.1.8. baş vermiş hadisənin sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

20.1.9. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu qaydaların 8.4.1-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.

20.2. Bu qaydaların 15.2.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz.

20.3. Bu qaydaların 20.1.5-ci maddəsində müəyyən edilmiş hallarda sığortaçı zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda belə, aşkar faktlarla sübut olunan həcmdə sığorta ödənişindən imtina edə bilməz.

20.4. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığorta hadisəsi onun baş verməsinə yönələn, sığorta müqaviləsi üzrə sığortalı və (və ya) sığorta olunan hesab edilməyən faydalanan şəxsin qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verdikdə, həmin faydalanan şəxs sığorta ödənişini almaq hüququndan məhrum olur.

**21. Tərəflərin məsuliyyəti**

Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**22. İş sirlərinin gizli saxlanılması**

Sığortaçı, Sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda Sığoratalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır

**23. Xüsusi şərtlər**

23.1. Sığorta müqaviləsinə əlavə və dəyişikliklər qarşılıqlı razılaşma əsasında yazılı şəkildə rəsmiləşdirilir.

23.2. Bu Qaydalarda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər.

**24. Mübahisələrin həlli qaydası**

Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

**“PAŞA Sığorta” ASC**

**Fərdi qəza sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması**

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı (q) - 0,017.
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) – 61 882 AZN.
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) – 152 AZN.
4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) – 981.

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk üstəliyini işarə edək.

Sığorta olunan risk üzrə netto-dərəcə (Tn) üçün aşağıdakı düstur doğrudur:

$$Tn = Tə + Tr$$

Netto-dərəcənin əsas hissəsini 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı kimi hesablanır:

$$T_ə = \frac{100*q*S_ö}{So} = \frac{100*0,017*152}{61882} = 0,004 \text{ manat}$$

Risk üstəliyi aşağıdakı kimi hesablanır:

$$Tr = 1,2 *Tə* α(γ) * \sqrt{\frac{1-q}{nq}} = 1,2*0,004*3* \sqrt{\frac{1-0,017}{981*0,017}} = 0,003 \text{ manat}$$

Burada risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,99 götürdük. Bu halda həmin ehtimala uyğun əmsal α(γ) =3 olur. α(γ) – nın γ – dan (γ – təhlükəsizliyin təminatı adlanır) asılı olan qiymətləri aşağıdakı cədvəldə göstərilmişdir:

| | | | | | |
|---|---|---|---|---|---|
| γ | 0.84 | 0.90 | 0.95 | 0.98 | 0.9986 |
| α(γ) | 1 | 1.3 | 1.645 | 2,0 | 3,0 |

Sığorta müddəti 1 il təşkil edir.

Qeyd olunanlara əsasən Tn aşağıdakı kimi hesablanır.

$$Tn = T\text{ə} + Tr = 0{,}004 + 0{,}003 = 0{,}007 \text{ manat.}$$

Tarif dərəcəsinin strukturu: yüklənmə (f)- 40% . O cümlədən işlərin aparılması xərcləri- 17%, tarif mənfəəti- 23% .

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

$$T_b = \frac{T_n}{1-f} = \frac{0{,}007}{1-0.4} = 0{,}012 \text{ manat.}$$

Sığortanın şərtlərindən asılı olaraq baza tarif dərəcəsi azaldıcı və artırıcı əmsallar hesabına diferensiallaşdırılır.

| | Tarifə təsir edən risk faktorları | Artırıcı əmsallar |
|---|---|---|
| 1 | **Sığorta məbləği (limiti) həcmindən asılı olaraq** | 1-2,28 |
| 2 | **Azadolma məbləği** | 1 |
| | Azadolma tətbiq edilməklə | - |
| | Azadolma tətbiq edilməməklə | 1 |
| 3 | **Sığorta ərazisi ölkə xaricində olarsa** | 1-2,88 |
| 4 | **Sığortalının zərər tarixçəsi** | 1-2,99 |
| | Sığorta hadisəsi üzrə sığorta ödənişi verilmişdir | 1-2,99 |
| | Sığorta hadisəsi baş verməmişdir | - |
| 5 | **Sığorta haqqının ödəniş şəkli** | 1-2,99 |
| | Birdəfəlik | - |
| | Hissəvi | 1-2,99 |

Əlavə sığorta təminatından asılı olaraq baza tarif dərəcəsinə aşağıdakı artırıcı əmsallar tətbiq olunur

- Motosiklet və motorlu velosiped sürmək və onlara minmək-75%-dək
- Açıq dənizdə balıqçılıq, balıq ovu, qaban və digər vəhşi heyvanların ovlanması və dağ yüksəkliklərində ovçuluq - 65%-dək
- Ov, alpinizm, planerizm, speleologiya (mağaraları öyrənməklə əlaqədar elm), paraşütlə tullanma, sualtı idman növləri, qış idman növləri, reqbi, polo, döyüş sənətləri, motosiklet və at yarışları, su xizək yarışları; hər hansı idman yarışlarında və ya belə yarışlara məşqlər, həmçinin həyat və sağlamlıq üçün yüksək təhlükə yaradan hər hansı digər fəaliyyətlərdə iştirak – 70%-dək
- Bütün növ idman müsabiqələri, sürət yarışları - 70%-dək
- Sərnişin kimi uçmaq halı istisna olmaqla, havada bütün növ uçuşlar və həmçinin təlim uçuşları - 70%-dək

Sığorta müqaviləsinin müddəti 1 ildən az olduqda, aşağıdakı cədvəldə göstərilən əmsallar Baza sığorta tarifinə tətbiq edilir.

| **Sığorta müqaviləsinin müddəti (aylarla)** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | **5** | **6** | 7 | 8 | 9 | 10 | 11 |
| **Sığorta haqqı (illik SH-nın % - i)** | | | | | | | | | | |
| 20% | 30% | 40% | 50% | 60% | 70% | 75% | 80% | 85% | 90% | 95% |

Yuxarıda qeyd olunanları nəzərə almaqla yekun tarif dərəcəsi 0,0024%- 10,00% aralığında dəyişir.

Qeyd: Tarif dərəcəsi intervalı yuxarıda qeyd olunmuş işlərin aparılması xərcləri və tarif mənfəətinə uyğun hesablanmışdır, işlərin aparılması xərcləri və tarif mənfəəti xüsusi hallarda dəyişilə bilər. O cümlədən, istisna hallarda yuxarıda qeyd olunan yekun tarif dərəcələrinin üst (maksimum) həddi sığortaçı tərəfindən artırıla bilər.